bu siyasi addımı ölkəmizin ərazi bütövlüyü, suverenliyi və regional mövqeyinə prinsipial dəstək idi. Pakistanın Ermənistanı müstəqil ölkə kimi tanımaması isə bu prinsipial mövqenin açıq, davamlı təzahürüdür. İkinci zamanı "Arazı ayırdılar..." bayatısını deməsi təsadüfi deyildi. Bu sözlər həm emosional həmrəyliyin, həm də strateji münasibətlərin dərinliyini ifadə edən siyasi rəmzlərdir. Dövlət başçısı Ərdoğanın çıxışı, 86 milyonluq

# Yeni əməkdaşlıq arteriyası:

## Bakı-Ankara-İslamabad üçbucağı

*Sirr deyil ki, Cənubi Qafqazda yeni güc mərkəzi formalaşır və bu mərkəz müstəqilliyini möhkəmləndirən, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycan reallığı üzərində qurulur. Azad edilmiş torpaqlarda həyata keçirilən bərpa və quruculuq prosesi Azərbaycanın idarəetmə, resurs səfərbərliyi və iradə gücünün göstəricisidir. Xarici maliyyə və texniki yardım olmadan daxili resurslarla yolların, körpülərin, elektrik və kommunikasiya xətlərinin yenidən qurulması ölkəmizin inkişaf modelini nümayiş etdirir.*

Laçında tramvay və kanat yolu layihələrinin planlaşdırılması, turizm infrastrukturu üçün obyektlərin inşası, regionun gələcəyə hesablanmış ağıllı şəhər modelinə çevrildiyini göstərir. Mayın 28-i tarixinə olan məlumata əsasən Laçında artıq 3 153 nəfər daimi olaraq məskunlaşıb. Elektron portal vasitəsilə 8 minə yaxın şəxsə şəhərə giriş icazəsi verilib. Demoqrafik baxımdan bu, sosial sabitliyin və təhlükəsizliyin bərqərar olduğunu göstərir. Laçına yeni ailələrin köçürülməsi, ərazilərin minalardan təmizlənməsi və sosial xidmətlərin bərpası bu prosesin davamlı olacağına dair güclü əsaslar yaradır. Azərbaycanın burada keçirdiyi tədbirlərlə də beynəlxalq ictimaiyyətə aydın mesaj verir ki, Laçın və digər işğaldan azad edilmiş bölgələr ölkəmizin tarixi və hüquqi əraziləridir.

Həyata keçirilən bərpa prosesi isə bu bölgələrin gələcəyin bir parçası olduğunu göstərir. Azərbaycanın müstəqilliyinin 107-ci ildönümünün Laçında - uzun illər işğal altında qalmış, lakin bu gün azadlığı və inkişafı ilə yeni dövrə qədəm qoyan bir şəhərdə qeyd olunması mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Şahbaz Şərif ilə Laçında keçirdiyi görüş Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlıq modelinin təzahürü idi. Bu üçlüyün azad edilmiş ərazilərdə bir araya gəlməsi Azərbaycan diplomatiyasının çoxşaxəli siyasətinin uğurlu nəticəsi olaraq müsəlman ölkələri arasında həmrəyliyin və qarşılıqlı dəstəyin konkret nümunəsinə çevrildi.

Azərbaycan tarixinin ən çətin və eyni zamanda şərəfli mərhələlərində onu yalnız buraxmayan dövlətlərin ön sıralarında Türkiyə və Pakistan dayanır. Bu iki ölkə beynəlxalq platformalarda hər zaman Azərbaycanın haqlı mübarizəsinə birmənalı dəstək nümayiş etdirib. Ermənistanın işğalçı siyasətinə qarşı susmayan, onu ifşa edən və Azərbaycanla həmrəylik göstərən Ankara və İslamabadın davranışı bu gün regional siyasətdə yeni geosiyasi ittifaqın əsas sütunlarını formalaşdırır.

1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri Türkiyə və Pakistan oldu. Hər iki dövlətin Qarabağ müharibəsi zamanı Türkiyə və Pakistanın Azərbaycanın yanında olması, qazanılan hərbi qələbənin mənəvi dayağı olmaqla yanaşı, beynəlxalq diplomatiyada ölkəmiz üçün geniş imkanlar yaratdı. Müharibə dövründə verilən bəyanatlar, keçirilən beynəlxalq görüşlər və müxtəlif təşkilatlarda nümayiş olunan həmrəylik Azərbaycanın haqlı mövqeyinin legitimləşməsində mühüm rol oynadı. Dövlət başçısı çıxışı zamanı açıq şəkildə bəyan etdi ki, bu birlik böyük rəmzi məna daşıyır: "Çünki 44 günlük İkinci Qarabağ müharibəsi zamanı bizi Türkiyə və Pakistan dəstəkləmişdir. Türkiyənin və Pakistanın dəstəyi bizi ruhlandırırdı, bizə əlavə güc verirdi. Bu böyük siyasi və mənəvi dəstəyə görə biz hər zaman qardaş ölkələrin rəhbərlərinə, qardaş xalqlara minnətdarıq". Bu bəyanat həm də gələcək əməkdaşlığın siyasi əsaslarını möhkəmləndirən strateji jestdir. Laçın görüşü regionda yeni təhlükəsizlik və əməkdaşlıq arxitekturasının əsasını qoyur. Bu arxitektura isə üç əsas sütun üzərində dayanır: siyasi həmrəylik, tarixi qardaşlıq və qarşılıqlı etimad.

Türkiyə və Pakistanla münasibətlər dini, tarixi, mədəni, milli və strateji baxımdan ortaq maraqlara əsaslanan çoxşaxəli ittifaq modelidir. Azərbaycanın haqq işinə dəstək verməyən bəzi müsəlman ölkələrinin fonunda Pakistan və Türkiyənin fəallığı bir daha sübut etdi ki, bu ittifaq ideoloji uyğunluq, siyasi prinsipiallıq, strateji məqsədlərlə möhkəmlənib. Pakistanın siyasi sistemində illər ərzində baş verən dəyişikliklər, hakimiyyətlərin əvəzlənməsi, daxili təlatümlər bu ölkənin Azərbaycanla münasibətinə heç bir mənfi təsir göstərməyib. Bu isə onu göstərir ki, İslamabadın Bakı ilə münasibətləri şəxslərə və ya hökumətə bağlı deyil, dərin dövlət siyasətinə çevrilmiş strateji xəttin tərkib hissəsidir. Məhz buna görə Şahbaz Şərifin Laçında Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanla birlikdə müstəqillik bayramında iştirak etməsi prinsipial xarakter daşıyır. Bu, həm də Azərbaycanın Pakistan və Türkiyəyə münasibətində səmimi, dəyişməz bir mövqeyinin göstəricisidir. Azərbaycan həmin dövlətlərə etibarlı qardaş, strateji tərəfmüqabil və ortaq gələcək layihələrinin iştirakçısı kimi yanaşır.

Son illər Ankaranın istər Qara dəniz regionunda, istər Yaxın Şərqdə, istərsə də Afrikada oynadığı rol onun regional gücdən qlobal aktora çevrildiyini göstərir. Şübhəsiz, bu çevrilmə təsadüfi deyil. Ankara diplomatik aktivliyi, hərbi gücü, texnoloji potensialı və humanitar layihələri ilə Şərqlə Qərb arasında yeni siyasi körpü qurur. Rusiya-Ukrayna müharibəsində vasitəçilik təşəbbüsləri, NATO və Avrasiya gücləri arasında balans siyasəti, Türk Dövlətləri Təşkilatının fəal üzvü kimi fəaliyyət bunun bariz nümunələridir. Rəcəb Tayyib Ərdoğanın Laçında 28 May - Müstəqillik Gününə həsr olunmuş konsertdə iştirakı isə bu qlobal statusun Cənubi Qafqazdakı təzahürüdür. Eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın tədbirdə Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirməsi, əvvəlki illərdə isə Qarabağa səfəri

Türkiyə xalqının salamını Azərbaycan xalqına çatdırması və səmimi nitqi iki ölkə arasında mədəni-sivilizasiya bağlarının da güclü olduğunun nümayişi idi: "Bəli, obamız, yuvamız və göz bəbəyimiz Azərbaycan ilə aramızdakı məhəbbəti, inşallah, gücləndirərək davam etdirəcəyik. Bu xoş gündə olduğu kimi, Allah göstərməsin, çətin günlərində də Azərbaycan xalqının hər zaman yanında olacağıq. Rəbbimdən Azərbaycan-Türkiyə qardaşlığını əbədi və daimi etməsini diləyirəm".

Laçın zirvəsinin mühüm geosiyasi məqamlarından biri də Pakistanın bu görüşdə iştirakı idi. Çünki tədbir Pakistanın öz daxilində və sərhədlərində gərginliyin artdığı bir dönəmdə baş tutdu. Pakistan-Hindistan münasibətləri yenidən gərgin fazaya daxil olub. Baxmayaraq ki, iki dövlət arasında rəsmi atəşkəs mövcuddur, Hindistanın Baş naziri Narendra Modi son çıxışlarında Pakistana qarşı ittiham və təhdid dolu ritorika nümayiş etdirdi. Bu isə regionda sabitliyi təhlükə altına alan tendensiyadan xəbər verir. Bundan əlavə, Hindistanın Ermənistanla hərbi əməkdaşlığını artırması, o cümlədən silah tədarükünü intensivləşdirməsi həm Azərbaycan, həm də Pakistan üçün ciddi narahatlıq doğurur. Bu fonda Laçında keçirilən üçtərəfli görüş Hindistana dolayı siyasi xəbərdarlıq kimi də şərh oluna bilər. Azərbaycan, Türkiyə və Pakistan regional təhlükəsizlik məsələlərində həmrəy şəkildə hərəkət etməyə qadirdir. Pakistan bu ittifaqda nüvə silahına sahib, öz maraqlarını qətiyyətlə qoruyan, müstəqil və prinsipial beynəlxalq siyasət yürüdən dövlət kimi çıxış edir. Yeri gəlmişkən, Pakistanın Baş naziri Şahbaz Şərif çıxışında Hindistanın ölkəsinə qarşı hücumlarını xatırladaraq Azərbaycanın və Türkiyənin qətiyyətli dəstəyini minnətdarlıqla dilə gətirdi: "Pakistan Hindistan tərəfindən hücuma məruz qaldı və əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, bizim türkiyəli olan qardaş və bacılarımız dərhal Pakistanı dəstəklədilər. Əziz qardaşım İlham Əliyev də, azərbaycanlı bacı və qardaşlarımız da eyni qətiyyəti göstərdilər. Onlar Azərbaycanın və Pakistanın həmrəy olduğunu nümayiş etdirdilər. Bu, dərhal baş verdi. Bu, bizim tariximizin ən gözəl anlarından biri idi ki, üç qardaş ölkə vahid ailə olaraq bir araya gəldilər. Çətin zamanda bir araya gəldilər. Biz bunu heç vaxt unutmayacağıq. İnanın mənə ki, qardaşım, Prezident Ərdoğanın və əlbəttə, əziz qardaşım Prezident İlham Əliyevin verdiyi dəstəyin əvəzini mən heç vaxt çıxa bilməram".

Laçında təşkil olunan unikal görüş, həm də Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq nüfuzunun və şəxsi xarizmasının təzahürüdür. Rəcəb Tayyib Ərdoğan və Şahbaz Şərifin yüksək siyasi-iqtisadi gərginlik içində vaxt ayırıb Laçına gəlmələri Azərbaycan Prezidentinə göstərdikləri hörməti bir daha təsdiqlədi. Laçın görüşünün praktiki nəticələri də siyasi mesaj qədər önəmlidir. Bu zirvə ilə Ankara-Bakı-İslamabad üçlüyü yeni mərhələyə - ticarət, enerji və nəqliyyat arteriyalarının qurulması mərhələsinə keçid etdiyini nümayiş etdirdi.

**Nəzrin ELDARQIZI,**
**"Respublika"**